# Əsas Dəyişikliklərin Xülasəsi və İzahlı Qeydlər

## *Qadağan Edilmiş Siyahı 2024*

*Qadağan Edilmiş Siyahının* S1, S2, S4, M1, M2, M3 və S6 bölmələrinin alt sinifləri sənəd boyu daha yaxşı aydınlıq və alt siniflərin hər hansı yanlış təfsirinə yol verməmək üçün yenidən nömrələndi, lakin təsnifatda heç bir dəyişiklik olmadı.

## HƏR ZAMAN QADAĞAN EDİLMİŞ MADDƏ VƏ ÜSULLAR
(YARIŞ MÜDDƏTİNDƏ VƏ YARIŞDAN KƏNAR MÜDDƏTDƏ)

# QADAĞAN EDİLMİŞ MADDƏLƏR

### S0. Təsdiq Edilməmiş Maddələr

- 2,4-Dinitrophenol (DNP) və troponin aktivatorları (məsələn, Reldesemtiv və Tirasemtiv) nümunə kimi verilmişdir.

### S1. Anabolik Agentlər

- Trestolone (7a-methyl-19-nortestosterone, MENT), dimethandrolone (7a,11ß-Dimethyl-19-nortestosterone) və 11ß-methyl-19 nortestosterone misal olaraq nandrolone (19-nortestosterone) analoqlarına əlavə edilmişdir.

### S2. Peptid Hormonları, Böyümə Faktorları, Onlara Oxşar Maddələr və Mimetiklər

- S2.2.1 aydınlıq üçün “Kişilərdə testesteron-stimullaşdırıcı peptidlər” başlığı altında redaktə edilmişdir. Bu, buserelin, deslorelin, goserelin, histrelin, leuprorelin, nafarelin, triptorelin və yeni əlavə edilmiş histrelin ilə qonadotropin relizinq hormonun (GnRH) aqonist analoqlarının nümunələri olduğunu göstərir.

  Kisspeptin və onun, GnRH sekresiyasını  və nəticədə testosteronu da stimullaşdırmaq üçün fəaliyyət göstərən, aqonist analoqları əlavə edilmişdir.
- S2.2.2: Nümunə olaraq tetracosactide (ACTH 1-24) əlavə edilmişdir, çünki o, təbii corticotrophin-in (ACTH) ilk 24 amin turşusu hissəsidir və təbii hormonun tam bioloji aktivliyinə malikdir.
- S2.2.4: Capromorelin və ibutamoren (MK-677) böyümə hormonu ifrazatlarına misal olaraq əlavə edilmişdir ki, bunlar böyümə hormonunun (GH) və öz növbəsində insulinə bənzər böyümə faktoru 1-in (IGF-1) istehsalını stimullaşdıran təbii hormon, qrelinin mimetikləridir.
- S2.3: Rekombinant insan IGF-1 üçün INN adı, mecasermin əlavə edildi.

## S4. Hormon və Metabolik Modulyatorlar

- S4.4.1 alt sinifi Rev-Erb-a aqonistlərini daxil etmək üçün yeniləndi və misal olaraq, SR9011 əlavə edildi və SR9009 yeri dəyişdirildi.

## S5. Diuretiklər və Gizlədici Agentlər

- Aydınlığı artırmaq üçün S5 bölməsində redaksiya dəyişiklikləri edildi. Conivaptan və mozavaptan vaptan dərmanlarının əlavə nümunələri kimi əlavə edilmişdir.

# QADAĞAN EDİLMİŞ ÜSULLAR

## M1. Qan və Qan Komponentləri ilə Manipulyasiyalar

- *İdmançılar* tərəfindən plazma və ya plazma komponentlərin qeydiyyat olunmuş toplama mərkəzində həyata keçirilən plazmoferez vasitəsilə donorluğu artıq qadağan olunmur.

# QADAĞAN EDİLMİŞ MADDƏLƏR

## S6. Stimullaşdırıcılar

- 2-phenylpropan-1-amine (BMPEA, ß-methylphenethylamine) qida əlavələrində olması səbəbindən xüsusi stimullaşdırıcılara nümunə olaraq əlavə edildi.
- Tramazoline istisnalar altında imidazoline törəmələri kimi əlavə edilmişdir.

## S7. Narkotiklər

- 23 sentyabr 2022-ci il tarixdə İcraiyyə Komitəsinin təsdiq etdiyi kimi Tramadolun 1 yanvar 2024-cü il tarixindən etibarən *Yarış Müddətində* istifadəsi qadağandır. Tramadol bir neçə ildir ki, *ÜADA*-nın Monitorinq Proqramındadır. Monitorinq məlumatları velosiped idmanı, reqbi və futbol kimi idman növlərində əhəmiyyətli istifadəni göstərdi. Tramadoldan sui-istifadə, fiziki asılılıq, opiat istifadəsi pozğunluğu və ümumi əhali arasında dozadan asılı riskləri ilə narahatlıq doğurur və bir çox ölkələrdə onun nəzarət edilən bir dərman olmasına səbəb olmuşdur. *ÜADA* tərəfindən maliyyələşdirilən tədqiqatlar[1], idmanda fiziki göstəriciləri artırmaq üçün tramadolun potensialını təsdiqlədi. Tövsiyə olunan yuyulma müddəti[§] 1 yanvar 2024-cü il tarixindən əvvəl bildiriləcək.

§ Yuyulma müddəti son tətbiq olunan dozadan *Yarış Müddətinin* başlanmasına qədər olan müddətdir (yəni *ÜADA* tərəfindən digər tərif müəyyən edilmədiyi təqdirdə, *İdmançının* iştirak edəcəyi yarışdan əvvəlki bir gün saat 23:59-dan başlayan müddət *Yarış Müddəti* hesab olunur).

1 a) Holgado D, Zandonai T, Zabala M, Hopker J, Perakakis P, Luque-Casado A, Ciria L, Guerra-Hernandez E, Sanabria D. Tramadol effects on physical performance and sustained attention during a 20-min indoor cycling time-trial: A randomised controlled trial. J Sci Med Sport. 2018 Jul;21(7):654-660.
b) Mauger L, Thomas T, Smith S, Fennell C. Tramadol is a performance-enhancing drug in highly trained cyclists: a randomized con�trolled trial. J Appl Physiol. 2023 Jul;135: 467–474

## S9. Qlükokortikoidlər

- Qlükokortikoidlərin rektal tətbiqindən sonra minimum yuyulma müddətləri indi Qlükokortikoidlərin yuyulması cədvəlinə daxil edilmişdir; qlükokortikoidlər rektal yolla tətbiq olunduqda *Yarış Müddətində* qadağan olaraq qalır. Bu yuyulma müddətləri istehsalçının icazə verilən maksimum dozalarına uyğun olaraq bu dərmanların istifadəsinə əsaslanır:

| Qəbuletmə yolu | Qlükokortikoid | Yuyulma dövrü* |
|---|---|---|
| **Oral**** | Bütün qlükokortikoidlər | 3 gün |
| | **İstisna:** triamsinolon; triamsinolon asetonid | 10 gün |
| **Əzələdaxili** | Betametazon; deksametazon; metilprednizolon | 5 gün |
| | Prednizolon; prednizon | 10 gün |
| | Triamsinolon asetonid | 60 gün |
| **Yerli inyeksiyalar** (o cümlədən periartikulyar, intraartikulyar, peritendinoz və intradendinoz) | Bütün qlükokortikoidlər | 3 gün |
| | **İstisna:** prednizolon; prednizon; triamsinolon asetonid; triamsinolon heksasetonid | 10 gün |
| **Rektal** | Bütün qlükokortikoidlər | 3 gün |
| | **İstisna:** triamsinolon diasetat; triam-sinolon asetonid | 10 gün |

* Yuyulma müddəti son tətbiq olunan dozadan *Yarış Müddətinin* başlanmasına qədər olan müddətdir (yəni *ÜADA* tərəfindən digər tərif müəyyən edilmədiyi təqdirdə, *İdmançının* iştirak edəcəyi yarışdan əvvəlki bir gün saat 23:59-dan başlayan müddət *Yarış Müddəti* hesab olunur). Bu, qlükokortikoidin hesabat səviyyəsindən aşağı xaric edilməsinə imkan vermək üçündür.

** Oral yollara həmçinin məs. oromukozal, bukkal, qinqival və sublinqval daxildir.

- Yuyulma Müddəti Cədvəlini Siyahının Tez-tez Verilən Suallar bölməsində də tapa bilərsiniz: **https://www.wada-ama.org/en/ prohibited-list#faq-anchor**

# MONİTORİNQ PROQRAMI

- Tələb olunan yayılma məlumatları əldə edildiyi üçün salmeterol və vilanterol xaric edildi.
- Tramadol, S7: Narkotiklər altında qadağan edildiyi üçün, çıxarıldı.
- Tapentadol və dihydrocodeine *Yarış Müddətində* istifadə nümunələrini izləmək üçün əlavə edildi.
- GLP-1 analoqu semaglutide idmanda yayılması və istifadə qaydasını araşdırmaq üçün əlavə edilmişdir.

* Əvvəlki dəyişikliklər və dəqiqləşdirmələr haqqında əlavə məlumat üçün, lütfən, **https://www.wada-ama.org/en/prohibited-list#faq-anchor** ünvanında *Qadağan Edilmiş Siyahının* Tez-tez Verilən Suallar bölməsinə baxın.